# 2019-cu il ölkəmizdə «Nəsimi ili»dir

## Böyük mütəfəkkirin yubileyi keçirilib

***Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.***

***Tədbirdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, məktəb müəllimləri və şagirdləri iştirak ediblər.***



Yubiley tədbirini açan məktəbin direktoru Zərnişan Ağamirzəyeva Nəsimi yaradıcılığı haqqında geniş çıxış edib. Qeyd olunub ki, İmadəddin Nəsimi Azərbaycan dilində şeirin ilk gözəl nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli sənətkarlardan biri olub. Onun ana dilindən başqa fars və ərəb dillərində müxtəlif janrlarda yazdığı şeirlər şairin adının öz vətənindən çox-çox uzaqlarda, bütün yaxın Şərqdə şöhrətlənməsinə səbəb olub.

Ədibin həyatı haqqında məlumat verən müəllim Şəfiqə Atayeva şairin Şamaxıda kamil təhsil aldığını, klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsədiyini, İslamın və xristianlığın əsaslarına yaxından bələd olduğunu, tibb, astronomiya, astrologiya, riyaziyyat və məntiq elmlərinə dərindən yiyələndiyini vurğulayıb, Azərbaycan, ərəb və fars dillərində eyni dərəcədə gözəl şeirlər yaza bildiyini söyləyib.

Böyük mütəfəkkirin yaradıcılığından söhbət açan məktəbin müəllimi Ruhanə Ağayeva şairin özündən sonra zəngin bir irs qoyub getdiyini, insanı, insan ləyaqətini qüdrətlə tərənnüm etdiyini diqqətə çatdırıb.

Məktəbin müəllimi Abgül Cancanova dahi şairin dinifəlsəfi görüşləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Təhsil şöbəsinin müdiri Arifə Bayramova çıxışında Nəsiminin hər üç dildə yazdığı şeirlərin bədii cəhətdən sənətkarlıqla işlənildiyini, sairin qabaqcıl ideyalarının dövrün mürtəce qüvvələri tərəfindən şiddətli müqavimətə rast gəldiyini, öz şeirlərində cahil insanları tənqid etdiyini, insanları həyat gözəllikləri ilham almağa çağırdığını, müasirlərini həyat və kainatın sirlərini öyrənməyə, mövcud ictimai-siyasi, dini qaydalara açıq gözlə baxmağa çağırdığını deyib.

Tədbirdə məktəbin şagirdləri “Nəsimi” filminin süjeti əsasında səhnələşdirdikləri fraqmentləri nümayiş etdiriblər.

Məktəblilərin çıxışları alqışlarla qarşılanıb.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

## İnsanı ilahiləşdirən şair

Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində “Nəsimi ili”nə həsr olunmuş silsilə tədbirlər keçirilir.



Bu günlərdə keçirilən növbəti tədbirdə də iştirakçılara böyük şairin həyatı və yaradıcılığı, eyni zamanda XV əsrdə Azərbaycanda geniş yayılmış hürufilik cərəyanı barədə geniş məlumat verilmiş, məruzələr dinlənilmişdir.

Məktəbin direktoru Təranə Səlimova çıxışında şairin əsərlərinin hələ sağlığında təkcə Azərbaycanda deyil, bütün Şərqdə, türk dünyasında dillər əzbəri olduğunu qeyd etmişdir. O dövrdə yaşamış digər şairlərlə müqayisədə Nəsiminin əsərlərində ərəb və fars sözlərinin daha az işləndiyini deyən natiq Nəsiminin öz şeirlərində, qəzəllərində Azərbaycan dilinin zəngin söz ehtiyatından məharətlə istifadə etdiyini bildirmişdir.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin məsul işçisi Vüsalə Soltanova Nəsiminin klassik Şərq poeziya aləmində mühüm yer tutduğunu vurğulamış, əsərlərində insanın əzəmətini, şəxsiyyət azadlığını, ülvi məhəbbəti tərənnüm etdiyini qeyd etmişdir.

Məktəbin şagirdləri tədbirdə dahi şairin şeirlərini səsləndirmiş, həyatını əks etdirən səhnəciklər nümayiş etdirmişlər.

Sonda tədbirin hazırlanmasında fəallıq göstərən müəllimlər və şagirdlər məktəb direktoru tərəfindən diplomlarla təltif edilmişlər.

**Təhminə MİRZƏLİYEVA,**
**məktəbin müəllimi.**

## Dahi şairə həsr olunan ədəbi-bədii gecə

Bu günlərdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə şəhər 1 nömrəli tam orta məktəbdə ədəbi-bədii gecə keçirilmişdir.

Tədbirdə rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova, məktəbin müəllim və şagird kollektivi iştirak etmişlər.

Gecəni məktəb direktorunun müavini Nurdanə Zeynalova açmışdır.

Yubiley tədbirində məktəbin direktoru Məhəbbət Rüstəmova çıxış etmişdir.

Məktəbin müəllimləri Sevda Babayevanın, Hökümə İsmayılovanın və Amal Cəlalzadənin təşkil etdiyi gecədə dahi şairin yaradıcılığından nümunələr səsləndirilmiş, teatrlaşdırılmış səhnəciklər ifa olunmuşdur.

Sonda şagirdlərin əl işlərindən və təsviri incəsənət nümunələrindən ibarət sərgi nümayiş etdirilmişdir.

**Fidan İSMAYILOVA,**
**məktəbin müəllimi.**

## Balacaların sevinci

***Eldəniz Mehdiyev adına Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbi rayonumuzun qabaqcıl təhsil ocaqlarındandır. Burada ənənəvi olaraq maraqlı tədbirlər keçirilir. Bu günlərdə məktəbin birinci siniflərində keçirilən “Əlifba bayramı” da yadda qalan tədbirlərdən olmuşdur.***




Şagirdlərin, müəllimlərin və valideynlərin iştirak etdiyi “Əlifba bayramı”nı məktəbin direktoru Mədinə Qasımova açmışdır. Birinci sinif müəllimləri Cəmilə Məmmədovanın, Ulduzə Baxışovanın və Elnarə Qədirovanın məktəbin “Bayraq” meydanındakı çıxışlarından sonra tədbir məktəbin akt zalında davam etmişdir.

Bayram tədbirində şagirdlərin ifa etdikləri Vətənə, müəllimə, anaya həsr olunmuş şeirlər, rəqslər iştirakçılar tərəfindən alqışlarla qarşılanmışdır.

“Əlifba bayramı” nda iştirak edən valideynlər tədbirin təşkilinə və övladlarına göstərilən diqqətə görə tədbirin təşkilatçılarına təşəkkürlərini bildirmişlər.

**Bəhriyyə FEYRUZOVA,**
**məktəbin müəllimi.**

## Yaddaşlardan silinməyəcək

31 may günü Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə əsil bayram əhval ruhiyyəsi hökm sürürdü. Birinci sinif şagirdləri, müəllimlər və valideynlər “Əlifba bayramı”na toplaşmışdılar.

Budur, cəmi 9 ay öncə kövrək addımlarla məktəbə ayaq basan, bəzilərinin gözündə yaş gilələnən körpələr akt zalına gülər üzlə, cəsarətli addımlarla daxil olurlar.

Tədbir birincilərin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin oxunması ilə başlayır. Sonra balacalar Vətənə, anaya, müəllimə, igid əsgərlərimizə, əlifbaya həsr olunmuş şeirlər oxuyur, bir-birindən gözəl mahnılar, rəqslər ifa edirlər.




Balacalar “Tıq-tıq xanım”, “Qırmızı papaq”, “Turp” uşaq nağıllarını səhnələşdirilmiş şəkildə tədbir iştirakçılarına təqdim edir. Hər şey təbii və gözəl alınır.

Tədbirin gedişi göstərir ki, birincilər həyatlarının bu ilk dərs ilində ana dilindən, riyaziyyatdan və digər fənlərdən çox şey öyrəniblər.

Məktəbin direktoru Zərnişan Ağamirzəyeva, valideynlər və digər çıxış edənlər balalarının təlim tərbiyyəsində fəallıq göstərən və “Əlifba bayramı” tədbirini yüksək səviyyədə təşkil edən sinif müəllimi Aidə Mustafayevaya, müəllimlərdən Rəvanə Kərimovaya, Qərənfil Vəliyevaya, Rəna Səmədovaya və digər təşkilatçılara təşəkkürlərini çatdırırlar.

Əsil bayram əhval-ruhiyyəsində keçən tədbir birincilərin, müəllimlərin, valideynlərin birlikdə rəqsi ilə başa çatır.

Balacaların əsas rol oynadığı bu bayram uzun müddət yaddaşlardan silinməyəcək.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

## Kitab sərgisi

*Azərbaycan Xalq Cumhuriyyətinin ildönümü ilə əlaqədar olaraq rayon tarix -diyarşünaslıq muzeyində açıq səma altında ”Azərbaycan 1918-1920- ci illərdə” adlı kitab sərgisi təşkil olunmuşdur.*

*Sərgidə Şərqdə ilk yaranmış Azərbaycan Xalq Cumhuriyyətinin qurucuları olan görkəmli şəxslərin həyat və fəaliyyətini, həmin illərin siyasi tarixini əks etdirən kitablar nümayiş etdirilmişdir.*

*Kitab sərgisində həm də oxuculara mütaliə üçün geniş şərait yaradılmışdır. Nümayiş etdirilən bütün kitablar tarixi baxımdan əhatəli olduğu üçün muzeyə gələnlərin marağına səbəb olmuşdur.*

***İlhamə SEYİDOVA,***
***muzeyin kiçik elmi işçisi.***